> **Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma, eyni zamanda, çox şərəfli, hörmətli peşədir.**
>
> ***Heydər ƏLİYEV***
> ***Ümummilli lider***

# Azərbaycan Prokurorluğu müstəqil dövlətimizin hüquqi sisteminin zəruri və önəmli qurumudur

***Bir əsrdən artıq inkişaf tarixi ərzində çətin və şərəfli inkişaf yolu keçən Azərbaycan Prokurorluğu dövlət müstəqilliyi illərində müasir dövrün tələblərinə və demokratik prinsiplərinə uyğun sivil təsisata çevrilmişdir.***

***Azərbaycanda milli prokurorluq orqanlarının təsis edilməsi müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunun ilk dövründə baş vermişdir. Azərbaycan Xalq Cümhuriyyəti 28 may 1918-ci ildə İstiqlal bəyannaməsini qəbul edərək müstəqilliyini elan etməklə Şərqdə ilk demokratik dövlətin əsaslarını yaratmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsində həyata keçirdiyi ən vacib məsələlərdən biri hüquq sisteminin qurulması və məhkəmə-istintaq orqanlarının formalaşdırılması olmuşdur.***



Azərbaycan hökuməti 1918-ci ilin sentyabr ayında Bakıya köçdükdən sonra məhkəmə-istintaq orqanlarında islahatların aparılması sürətləndirilmişdir. Azərbaycan Demokratik Respublikasının fəaliyyət göstərdiyi cəmi 23 ay ərzində baş vermiş ən mühüm hadisələrdən biri də Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində milli prokurorluq orqanlarının yaradılaraq fəaliyyətə başlaması idi.

Xalq Cümhuriyyəti dövründə Məhkəmə Palatası yanındakı Prokuror Nəzarətinin hakimiyyəti Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilmiş, prokurorluq cinayət prosesində ittihamı müdafiə və məhkəmə orqanlarında qanunların düzgün tətbiqinə nəzarət funksiyalarını həyata keçirmiş, çətin və mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması və cinayətkarlığa qarşı mübarizə sahəsində üzərinə düşən vəzifələri uğurla yerinə yetirmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra sovet hakimiyyətinin ilk dövrlərində xüsusi dövlət orqanı olan Azərbaycan SSRİ sovet prokurorluğunun əsası qoyulmuşdur. Həmin illərdə prokurorluq orqanları bolşevik-totalitar rejimin təsirlərinə məruz qalmış, ağır repressiya illərində milli düşüncə və əqidələrinə görə onlarca prokurorluq işçisi əsassız mühakimə edilərək güllələnmiş, sürgün edilmiş və digər təqiblərə məruz qalmışdır.

Azərbaycan xalqı öz dövlət müstəqilliyini əldə etdikdən sonra cəmiyyətin gələcək inkişafı üçün hüquqi islahatların həyata keçirilməsi, tamamilə yeni mütərəqqi və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılması zəruri idi. Lakin, 90-cı illərin əvvəllərində ölkədəki mövcud vəziyyət qarşıda duran həyati əhəmiyyətli vəzifələrin yerinə yetirilməsinə imkan vermirdi. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinə başlanılması, ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərqərar olunmasını zəruri edirdi.

Məhz belə ağır vəziyyətində xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev qısa zaman kəsiyində Azərbaycanda ictimai-siyasi sabitliyi tam təmin etməyə nail oldu. Davamlı ictimai-siyasi sabitliyə nail olunması isə vətəndaşların hüquq və mənafelərinin müdafiəsinə, beynəlxalq münasibətlər sisteminə inteqrasiyaya istiqamətlənən, sosial ədalət prinsipinə əsaslanan demokratik və hüquqi dövlət quruculuğuna imkan yaratdı. Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması isə ulu öndər Heydər Əliyevin gərgin siyasi fəaliyyətinin nəticəsidir.

Azərbaycanda prokurorluq orqanlarının formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilmişdir, o cümlədən prokurorluq orqanlarının da fəaliyyətində yeni bir dövr başlamışdır. Bu dövrdə müstəqil dövlətçiliyimizin əleyhinə olan cinayətlər, görkəmli ictimai və dövlət xadimlərinə qarşı törədilən terror aktları, dövlət əmlakının mənimsənilməsi, bank-maliyyə sistemində baş vermiş ağır cinayət hadisələri, o cümlədən sadə vətəndaşlarımızın əmanətlərinin talan edilməsi kimi ağır cinayət hadisələri məhz prokurorluq orqanlarının əməkdaşları tərəfindən peşəkarcasına istintaq edilmiş, təqsirkar şəxslər layiqli cəzalarını almışlar. Bu dövrdə Azərbaycanda 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət və hərbi çevrilişlərinə cəhdlərin qarşısı alınmışdır. Həmin hadisələrlə bağlı cinayət işlərinin istintaqının aparılmasında prokurorluğun bir qrup əməkdaşı xüsusilə fərqlənmişdir.

Ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin noyabr ayının 12-də ümumxalq səsverməsi– referendumla qəbul edilmiş, Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malik olan və qanunvericilik sisteminin əsasını təşkil edən Azərbaycan Respublikasının Konstitusiyası respublikamızda məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə ciddi zəmin yaratmışdır. Konstitusiyada prokurorluq orqanlarına konstitusion status verilərək bu mühüm təsisatın dövlət idarəetmə sistemində yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyən edilmişdir.

158 maddədən ibarət Əsas Qanunda prokurorluğun məhkəmə hakimiyyəti sistemində yerini, hüquqi statusunu, təşkili qaydasını, səlahiyyətlərini, eləcə də Azərbaycan Respublikasının Baş prokurorunun, onun müavinlərinin, ərazi və ixtisaslaşmış prokurorların vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsinin qaydalarını müəyyən edən və prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsinə təminat yaradan 133-cü, cinayət məhkəmə icraatında Azərbaycan Respublikası Prokurorluğunun tərəf kimi iştirakını müəyyən edən 125-ci maddələrinin yer alması prokurorluq orqanlarının dövlət və cəmiyyət üçün nə qədər vacib dövlət təsisatı olmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyin maraqlarına, qanunun aliliyinə, insan və vətəndaş hüquqlarının müdafiəsinə xidmət edən sivil bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici, maddi və sosial bazanın yaradılması da, ölkəmizdə həyata keçirilən geniş islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının memarı – ümummilli lider Heydər Əliyevin böyük qayğı və dəstəyi sayəsində mümkün olmuşdur. Ümummilli liderin rəhbərliyi dövründə Azərbaycanda məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, bu kontekstdə insan və vətəndaş hüquq və azadlıqlarının maksimum dərəcədə müdafiəsi üçün çevik mexanizmlərin yaradılması, habelə qanunların aliliyinin təmin olunması həyata keçirilən mütərəqqi islahatların mühüm istiqamətini təşkil etmişdir.

Müstəqil Azərbaycanın ali qanununda ilk dəfə olaraq ölkəmizin məhkəmə hakimiyyəti sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi də Heydər Əliyevin bilavasitə tapşırıq və göstərişlərinin icrasının nəticəsi idi. Həyata keçirilən möhtəşəm islahatlar çərçivəsində görülən nəhəng işlər sayəsində və təməl prinsiplərin mövcud tələblərlə uzlaşdırılması ilə hazırlanmış hüquqi baza əsasında Azərbaycan Prokurorluğu struktur və mahiyyət baxımından tamamilə yenidən qurularaq, yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirilməklə, səlahiyyətləri, vəzifələri və fəaliyyəti beynəlxalq standartlara uyğun formalaşdırılmış müasir dövlət təsisatına çevrildi.

Beləliklə, aparılan hüquqi islahatlar nəticəsində prokurorluq totalitar rejimə xas olan funksiyalardan xilas olmuş, onun fəaliyyətinin forma və metodları demokratik proseslərə və dəyərlərə uyğunlaşdırılmışdır. Belə ki, ümumi nəzarətdən imtina edilmiş, cinayət işləri, mülki və iqtisadi mübahisələr üzrə məhkəmə qərarlarının qanuniliyinə əvvəllər mövcud olan nəzarət prokurorluğun funksiyalarından çıxarılmış, dövlət ittihamının qərəzsiz, ədalətli müdafiəsi təmin edilmişdir.

Ümummilli lider Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-i respublikamızda prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü elan olunmuş, bu əlamətdar hadisə fəaliyyətimizə verilən yüksək qiymətin təcəssümü kimi tarixilik qazanmışdır. Belə ki, mövcudluğuna və fəaliyyət göstərməsinə baxmayaraq, milli prokurorluq orqanlarının yaranması tarixi uzun müddət diqqətdən kənarda qalmış və prokurorluq işçilərinin peşə bayramı təsis edilməmişdir. Prokurorluq işçilərinin peşə bayramının təsis edilməsi prokurorluq orqanlarının formalaşmasında və inkişafında müstəsna rolu olmuş ümummilli lider Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində gerçəkləşmişdir. Peşə bayramı gününün təsis edilməsi prokurorluğa böyük qayğının ifadəsi olmaqla yanaşı, prokurorluq əməkdaşlarının fəaliyyətinin layiqincə dəyərləndirilməsinin təzahürüdür.

Prezident Heydər Əliyev 28 noyabr 1998-ci ildə respublikamızda ilk dəfə olaraq prokurorluq orqanlarının yaradılmasının 80 illiyinə həsr olunmuş yubiley tədbirinin yüksək təntənə ilə keçirilməsinə göstəriş vermişdir. Həmin dövlət tədbirində ulu öndər dərin məzmunlu tarixi nitq söyləyərək prokurorluq işçilərinə dəyərli tövsiyələrini verməklə prokurorluq orqanları qarşısında dayanan əsas vəzifələri müəyyən etmişdir. Ulu öndərin prokurorluq peşəsi ilə bağlı vurğuladığı "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma, eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız" sözləri prokurorluq işçilərinin gündəlik həyat devizinə çevrilməklə, bizləri daim böyük ruh yüksəkliyi və iftixar hissi ilə öz peşə fəaliyyətimizə daha yüksək tələbkarlıqla və məsuliyyətlə yanaşmağa səfərbər edir. Müdrik rəhbərin qanunvericilik təşəbbüsü əsasında qəbul edilmiş 7 dekabr 1999-cu il tarixli "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu qarşıda duran bu və ya digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmış, prokurorluq orqanlarının daha da demokratikləşməsini, onların qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etmişdir.

Müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin rəhbərliyi altında insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi, qanunçuluğun bərpası, məhkəmələrdə dövlət ittihamının daha mütərəqqi prinsiplər əsasında təşkili istiqamətində həyata keçirilən mühüm addımlardan biri də prokurorluq sistemində çoxşaxəli islahatların aparılması, bu orqanın funksiya və vəzifələrinin Konstitusiyaya uyğunlaşdırılması olmuşdur. Azərbaycanda cəmiyyətin dinamik inkişafı, yeni iqtisadi-siyasi, hüquqi münasibətlərə keçid prokurorluğun statusuna yenidən baxılmasını zəruri etmişdir. Bunun nəticəsidir ki, hüquqi islahatlar çərçivəsində keçirilən referendumla qəbul edilmiş və 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər nəticəsində prokurorluq orqanlarına qanunvericilik təşəbbüsü hüququ verilməsi də bu orqanlara etimadın göstəricisidir.

İctimai həyatın bütün sahələri üzrə yeniləşən respublikamızda sabitliyin, qanunçuluğun, hüquq qaydalarının təminatında, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, kriminogen durumun yaxşılaşdırılmasında, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsində Azərbaycan Respublikası Prokurorluğunun müstəsna xidmətləri vardır. Qeyd edilməldir ki, prokurorluq orqanlarının hüquqi dövlət quruculuğunda, vətəndaş cəmiyyətinin formalaşdırılmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusilə, bir sıra dövlət çevrilişi cəhdlərində iştirak etmiş və digər ağır cinayətlər törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb olunaraq barələrində ədalətli məhkəmə hökmlərinin çıxarılmasında, insan, vətəndaş hüquq və azadlıqlarının qorunmasında danılmaz xidmətləri olmuşdur.

Müasir dövrdə Azərbaycan Respublikası Prokurorluğu orqanları tərəfindən daxili işlər, ədliyyə, məhkəmə, dövlət təhlükəsizlik xidməti və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunur. Prokurorluq orqanlarının bütün səyləri, ilk növbədə, dövlət başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, müasir məzmunlu islahatların eyni intensivliklə davam etdirilməsinə, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsinə, yeni iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılmasına, möhkəm nizam-intizam yaradılmaqla neqativ təzahürlərin vaxtında aradan qaldırılmasını təmin edən işlək nəzarət mexanizminin yaradılmasına istiqamətləndirilmişdir.

Ölkəmizdə bu gün də həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir.

Dövlət başçısı prokurorluq orqanlarının inkişafını həm də peşəkar prokurorluq əməkdaşlarının hazırlanmasından asılı olduğunu bildirərək demişdir: "Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır".

Prokurorluq orqanlarına işə qəbulun müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına komplektləşdirilməsi üçün ciddi təməl yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar. Həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində görülən tədbirlər nəticəsində prokurorluq orqanları struktur və mahiyyət baxımından yenidən qurularaq onun mütərəqqi normativ-hüquqi baza əsasında fəaliyyət göstərən çevik və işlək dövlət təsisatı kimi formalaşmasına nail olunmuşdur.

Prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkar kadr heyətinin formalaşdırılması məqsədilə ölkə başçısı cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmiş, bununla da, Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılaraq daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılmış, idarə və şöbələrin sayı 15-dən 18-ə çatdırılmış, idarəetmədə nəzarət mexanizminin optimallaşdırılması məqsədilə Baş prokurorun əlavə müavini vəzifəsi təsis edilmiş, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi ilə Bakı şəhər prokurorluğunun İstintaq idarəsi birləşdirilərək Baş Prokurorluğun İstintaq idarəsi yaradılmışdır.

Bundan başqa, Baş Prokurorluğun bəzi idarələri ləğv edilərək onların bazasında Təşkilat və icraya nəzarət, Xidməti araşdırmalar, Beynəlxalq hüquqi əməkdaşlıq, Hüquqi təminat və insan hüquqları, Kriminalistika və informasiya texnologiyaları, Sənədlərlə və müraciətlərlə işin təşkili idarələri təsis olunmuş, həmçinin mərkəzi aparatın yeni, Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılmışdır.

Ölkəmizdə davam edən uğurlu inkişaf proseslərinin fonunda prokurorluğun fəaliyyətinin ən vacib və önəmli istiqamətlərindən birini korrupsiyaya qarşı mübarizə təşkil edir. Qeyd etmək zəruridir ki, korrupsiyaya qarşı daha effektli əks təsirin həyata keçirilməsi həmin istiqamətdə görülən tədbirlərin kompleks xarakterli, ardıcıl və hərtərəfli olmasını, dövlət idarə və müəssisələrinin fəaliyyətində aşkarlığın və şəffaflığın artırılmasını, görülən işlər və əldə edilən nəticələr barədə ictimaiyyətin mütəmadi olaraq məlumatlandırılmasını, əhaliyə göstərilən xidmətlərin elektron vasitələrlə həyata keçirilməsinin təşkilini, xidmətlərin göstərilməsi prosedurunun sadələşdirilməsini, vətəndaşların elektron vasitələrlə informasiya almaq imkanlarının genişləndirilməsini, neqativ hallarla mübarizədə ictimaiyyətin köməyindən daha geniş istifadə edilməsini, cəmiyyətdə korrupsiyaya qarşı dözümsüzlüyün möhkəmləndirilməsini şərtləndirir. Bu məqsədlə son illərdə bir sıra tədbirlər həyata keçirilmiş, korrpusiya ilə mübarizə metodlarının daha səmərəli olması üçün qanunvericilik bazası genişləndirilmiş, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictmai nəzarətin gücləndirilmişdir. Bu da, öz növbəsində, əhalinin dövlət orqanlarına inam və etimadının artırılmasına güclü təkan vermişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-yönümlü siyasətin məqsədlərinə uyğun olaraq prokurorluq orqanlarının əməkdaşları öz növbələrində vətəndaşların müraciətlərinə daim diqqət və qayğı göstərməklə həssaslıqla yanaşır, əhalinin qəbulu məsələlərinə xüsusi önəm verir.

Əminliklə demək olar ki, bundan sonra da hər bir prokurorluq əməkdaşı qanunla üzərinə qoyulmuş vəzifələrin məsuliyyətini dərindən qavrayaraq, demokratik cəmiyyətdə öz vəzifələrini yerinə yetirərkən müstəqil Azərbaycanın inkişafı naminə qətiyyət və əzmlə çalışacaq, insan hüquq və azadlıqlarının müdafiəsinə, ictimai-siyasi sabitliyin, əmin-amanlığın və dövlətçiliyimizin layiqincə qorunmasına xidmət edəcək və vətəndaş məmnunluğunun yüksək səviyyədə təmin edilməsinə çalışacaqdır.

***Azad QARAYEV,***
***Gəncə şəhər prokuroru,***
***Baş ədliyyə müşaviri***